AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

*Əlyazması hüququnda*

ZEMFİRA İSAXAN QIZI ABBASOVA

# ELÇİN ƏFƏNDİYEVİN ƏSƏRLƏRİNDƏ ONOMASTİK VAHİDLƏRİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

**5706. 01- Azərbaycan dili**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I – 2016**

**Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Buludxan Əziz oğlu Xəlilov**
*filologiya üzrə elmlər doktoru,*
*professor*

**Rəsmi opponentlər:** **Roza Hüseyn qızı Eyvazova**
*filologiya üzrə elmlər doktoru*

**Fikrət Ramazan oğlu Xalıqov**
*filologiya üzrə elmlər doktoru,*
*professor*

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universiteti,**
**Müasir Azərbaycan dili kafedrası**

Müdafiə “_15__” __11_____ 2016-cı il saat “___”-da AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.141 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___»________ 2016-cı il tarixində göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru:** **N.F.Seyidəliyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Xalqın mədəni həyatında mühüm rol oynayan hər bir dil vahidi, o cümlədən onomastik leksikanın tədqiqi hər bir dövr üçün əhəmiyyətlidir. İstənilən zaman kəsiyində bir xalqın ictimai-siyasi həyatı, mədəniyyəti, dünyagörüşü və s. məsələlər haqqında məlumatı yalnız həmin dövrə və məkana aid xüsusi adlardan almaq mümkündür.

Yazıçı dilinin, üslubunun öyrənilməsi sahəsində də onomastik leksikanın tədqiqi əhəmiyyətlidir. Nəzərə alsaq ki, tariximizi-dünənimizi yaşadan adlar bədii əsərlərdəki yaşam körpüsü ilə gələcək nəsillərə ötürülür, o zaman belə adların zəngin olduğu bədii əsərlərin tədqiqat obyekti kimi götürülməsi elmin vacib addımlarından hesab edilə bilər.

Azərbaycan dilçiliyində bu sahədə xeyli işin görüldüyünü, bir çox yazıçıların əsərlərinin onomastik leksikasının tədqiq olunduğunun bir daha şahidi olarıq. A. Qurbanovun, R. Məhərrəmovanın, Q. Mustafayevanın, F. Bağırovanın, D.Əliyevanın, L.Piriyevanın, H.Hüseynovanın, Ə. Mikayılovanın və başqalarının tədqiqatları buna nümunə ola bilər. Adı çəkilən müəlliflərin əsərlərində M. Ə. Sabirin, S. Rəhimovun, S. Vurğunun, M. S. Ordubadinin və bir çox başqa yazıçı və şairlərimizin onomastik leksikası ciddiyətlə tədqiq edilmişdir. E.Əfəndiyevin yaradıcılığı isə müxtəlif istiqamətlərdən tədqiq olunsa da, məhz araşdırmağı qarşımıza məqsəd qoyduğumuz onomastik tədqiqatlardan kənarda qalmışdır.Bu da mövzunun aktuallığını şərtləndirir.

**Tədqiqatın obyekti.** Elçin yaradıcılığında işlənmiş onomastik vahidlər,onların üslubi-linqvistik xüsusiyyətlərinin müəyyənləşdirilməsidir.

**Tədqiqatın predmeti.** Elçin Əfəndiyevin bədii əsərlərində onomastik vahidlərin işlənmə qanunauyğunluğur. Dissertasiyada araşdırılan tədqiqat işi ilə bağlı mövcud elmi nəticələrə, onomastika sahəsi ilə bağlı elmi-tədqiqat əsərlərinə, araşdırma və təhlillərə istinad edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi XX əsr Azərbaycan bədii nəsrinin görkəmli nümayəndəsi Elçin Əfəndiyevin yaradıcılığında işlənən onomastik vahidləri sistemləşdirmək, onların üslubi-linqvistik əhətlərini tədqiq edib araşdırmaqdır. Bunun üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Elçin Əfəndiyevin yaradıcılığında işlənmiş onomastik vahidləri seçib sistemləşdirmək;
- onomastik vahidlərin hər bir qrupuna aid nümunələrin leksik-semantik cəhətlərini təyin etmək;
- onomastik vahidlərin qrammatik xüsusiyyətlərini müəyyən etmək;

– Elçin Əfəndiyevin yaradıcılığında işlənmiş xüsusi adların üslubi cəhətlərini aydınlaşdırmaq;
– xüsusi adların etimoloji xüsusiyyətlərini öyrənmək;
– onomastik vahidlərin derivatoloji cəhətlərini təyin etmək;
– xüsusi sözlərin milli mənsubluğunu araşdırmaq;
– real və qeyri-real onomastik vahidlərin nisbətini təyin etmək;
–yazıçının yaradıcılığında işlənmiş onomastik vahidlərin sözlüyünü tərtib etmək və s.

**Tədqiqatın metodu.** Tarixi-müqayisəli, təsviri, areal və üslubi metodlardan, eləcə də qarşılaşdırma, tutuşdurma və etimoloji üsullardan istifadə edilməklə diaxron və sinxron istiqamətdə tədqiqat aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq, E.Əfəndiyevin əsərlərinin onomastik sistemi sistemli şəkildə tədqiq olunmuş, onların leksik-semantik, qrammatik xüsusiyyətləri elmi cəhətdən təhlil olunmuş, Elçinin yaradıcılığında işlənmiş onomastik vahidlərin sözlüyü hazırlanıb, dissertasiyanın sonuna əlavə edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işinin həm nəzəri, həm də təcrübi əhəmiyyəti vardır. Elçinin əsərlərindəki onomastik vahidlərin təhlili üslubiyyatın nəzəri məsələlərinin izahında olduğu kimi, həm də onomastik vahidlərin linqvistik xüsusiyyətləri ilə bağlı aparılan tədqiqatlarda, onomastikanın nəzəri və təcrübi sahələri ilə bağlı elmi araşdırmalarda geniş və səmərəli şəkildə istifadə edilə bilər.Üslubiyyyata, onomalogiyaya aid dərslik, dərs vəsaitlərinin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın mənbəyi.** Tədqiqata Elçin Əfəndiyevin "Seçilmiş əsərləri" cəlb olunmuşdur [1].

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Elçin Əfəndiyevin yaradıcılığında xüsusi adlar sistemində özünü göstərən kateqoriyalar ədəbi dil normalarına əsaslanır;

– yazıçının apelyativ leksikası ilə onomastik leksikası arasında möhkəm bağlılıq var;

– yazıçı real həyat hadisələrinə əsaslandığı üçün daha çox real - həyati onomastik vahidlərdən istifadə etmişdir;

---

[1] Elçin. Ədəbi düşüncələr. Qapp-Poliqraf, Bakı, 2002; Elçin. Seçilmiş əsərləri. Bakı, Avrasiya Press, 2005; Elçin. Balddaşın ilk məhəbbəti. Qapp-Poliqraf. 2000; Elçin . Seçilmiş əsərləri. Çaşıoğlu., 2005.

– Elçin Əfəndiyevin onomastikası Azərbaycan dilinin onomastik sisteminə məxsus leksik-semantik, qrammatik cəhətləri özündə əks etdirir;

– həm milli mənşəli, həm də alınma adlardan üslubi məqsədlərlə istifadə edilmişdir;

– onomastik vahidlərin bütün növlərindən, xüsusilə antroponim, toponim və ktematonimlərdən geniş istifadə olunmuşdur;

– xüsusi adların derivatoloji cəhətlərinin öyrənilməsi fəal və qeyri-fəal budaq morfemlərin üzə çıxarılmasına şərait yaradır;

– söz yaradıcılığında sintaktik və sintaktik-morfoloji üsulların aktuallığı aydın şəkildə özünü göstərir;

– ləqəblərin və titulların yaradılmasında daha çox sintaktik üsuldan istifadə edilmişdir;

– yazıçının onomastik leksikası onu deməyə əsas verir ki, Elçin tarixiliklə müasirliyi eyni səviyyədə dəyərləndirən, onları vəhdətdə təqdim edən yazıçıdır və s.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasında yerinə yetirilmişdir. Dissertasiya ilə əlaqədar, Azərbaycanda və xaricdə, beynəlxalq və respublika səviyyəli konfranslarda çıxışlar edilmiş, on beş məqalə və tezis çap olunmuşdur.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə, ədəbiyyat siyahısı və sözlükdən ibarətdir.

## İŞİN ÜMUMİ MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, obyekti, elmi yeniliyi, metodları, müdafiəyə çıxarılan müddəalar, qarşıya qoyulmuş məqsəd və vəzifələr müəyyənləşdirilmiş, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və quruluşu təqdim edilmişdir.

**Birinci fəsil "Elçin Əfəndiyevin yaradıcılığında işlənən onomastik vahidlər və onların növləri "** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə "Poetik onomastika məsələləri"ndən bəhs olunur. Bu bölmədə tarixilik prinsipi gözlənilərək son əsrlər çərçivəsində Azərbaycanda poetik onomastikanın yaranması, aparılan tədqiqat işlərinin xarakterik cəhətləri, istifadə edilən üsul və metodların müəyyənləşdirilməsi, kəmiyyət və keyfiyyətcə inkişafı, təkamülü və digər məsələlərə münasibət

bildirilmiş, onomastik vahidlərin qorunub saxlandığı bir çox tarixi mənbələr diqqətə çatdırılmışdır.

Poetik onomastikada onomastik vahidlərin üslubi imkanları, onların sistem halında öyrənilməsinin vacibliyi haqqında 1986-cı ildə keçirilən Azərbaycan onomastikası problemlərinə həsr olunmuş elmi konfransda geniş bəhs edilmişdir. Dilçilərimizdən A.Qurbanov və A.Paşayev poetik onomastikanı iki yerə: şifahi və yazılı ədəbi əsərlərin onomastikasına bölmüşlər. Şifahi ədəbiyyatdakı onomastik vahidlər həmişə, təbii olaraq, yazılı ədəbiyyatdan fərqlənmişdir. Poetik onomastik vahidlərdə adi- real onomastik vahidlərdən fərqli olaraq, obrazlılıq daha güclü şəkildədir. Belə dayanıqlı, özəl xüsusiyyətə malik olan bu növ onomastik vahidlər müxtəlif janr və üslubda yazılmış poetik əsərlərdə işlənə bilir.

Şifahi ədəbiyyatda verilən onomastik vahidlər daha çox uydurma, fərziyyə xarakteri daşıyır və leksik-semantk üslubi cəhətdən fərqli olur.

Yazılı ədəbiyyatda işlənən onomastik vahidlər isə daha çox real həyatın göstəriciləridir. Lakin istər şifahi, istərsə də yazılı ədəbiyyatda onomastik vahidlər zəngin üslubi imkanlara malikdir. Poetik onomastikada yazıçının yaratdığı bədii əsərlərin adları, obrazlara verilən adlar və s. üslubi cəhətdən tədqiq edilir, yazıçının spesifik üslubi keyfiyyətləri kimi təqdim edilir.

“Poetik onomastika dilçiliyin ən yeni və az tədqiq olunmuş sahələrinəndir”[1]. A. Qurbanovun bu fikri poetik onomastikanın inkişafının müasir mərhələsi ilə səsləşmir. Çünki hazırda artıq poetik onomastika da ayrıca bir elm sahəsi kimi böyük uğurlar əldə etmişdir ki, bu işdə vaxtilə Azərbaycanda Onomastika məktəbinin yaradıcısı olan A. Qurbanovun rəhbərliyi ilə keçirilən konfransların, 2010-cu ilə qədər ADPU-da nəşr olunan “Onomastika” jurnalının böyük rolu olmuşdur.

Ümumiyyətlə, XIX əsrin ortalarında onomastik vahidlərın araşdırılmasına meyl o qədər genişlənib dərinləşmişdir ki, o, təkcə dilçilərin deyil, həm də tarixçi və coğrafiyaşünasların marağına səbəb olmuşdur. XIX əsrin ortalarında bu sahədən olan toponimlər diqqəti daha çox cəlb etmişdir. XX əsrin əvvəllərində isə dünyanın bir çox ölkələrində-Rusiyada, Fransada, İngiltərədə, Almaniyada və başqa ölkələrdə onomastik vahidlərin tədqiqi ilə ətraflı məşğul olunmağa başlanılmışdır.

---

[1] Qurbanov A. M. Azərbaycan onomalogiyasının əsasları. II c. Bakı, Nurlan, 2004, s. 56.

Elə İngilis alimi A.Qordinerin 1940-cı ildə Londonda çap etdirdiyi "Xüsusi adlar nəzəriyyəsi", rus alimi A.Superanskayanın 1973-cü ildə çap etdirdiyi "Xüsusi adların ümumi nəzəriyyəsi" kimi elmi işlərini bu mənada nümunə göstərmək yerinə düşər[1].

Albaniyanın bəzi toponimləri haqqında ilk məlumatlara hələ antik dövrün mütəfəkkirlərinin, xüsusilə yunan və roma müəlliflərinin əsərlərində təsadüf edilir. Azərbaycan haqqında ətraflı məlumat vermiş yunan tarixçisi,coğrafiyaşünası, filosofu Strabon 2000 il bundan əvvəl Qaspi, Gerqan, Araz, Kür, Alazan hidronimləri, Sakasen, Uti, Kambisen vilayətləri və digər toponimlərimiz barəsində məlumat vermiş, onları təhlil etməyə cəhd göstərmişdir.

II əsrdə məhşur yunan riyaziyyatçısı, coğrafiyaşünası, astronomu, astroloqu, filosofu Ptolomey özünün "Coğrafiya" əsərinə Albaniyanın 29 toponimini daxil etmişdir. VII əsrin ortalarında ərsəyə gətirilən "Alban tarixi" əsərində isə nəinki Azərbaycan toponimləri, hətta antrotoponimləri də öz əksini tapır [2].

IX-XII əsrlərdə ərəb səyyahlarının əsərlərində Azərbaycan onomastik vahidləri haqqında zəngin məlumatlara rast gəlmək olar. XIII əsr ərəb coğrafi-yaşünası Yaqut Əl-Həməvinin "Ölkə adlarının əlifba sırası ilə siyahısı" əsərində Azərbaycan toponimləri də əks olunmuşdur. Bəzi Azərbaycan etnonimlərinin mənşəyini aydınlaşdırmaq üçün XII əsr tarixçisi Rəşidəddinin əsərləri qiymətli mənbədir [3].

XVIII əsrin görkəmli coğrafiyaşünası, səyyah ömrünün otuz yeddi ilini səfərlərdə keçirmiş, din və təriqətlərin mahiyyəti haqqında, tarix, coğrafiya, poeziya və s. sahələr barədə çox qiymətli elmi əsərlər və risalələr çap etdirmiş olan H. Z. Şirvani qədim Azərbaycan toponimləri barəsində də dəyərli fikirlər söyləmişdir. O, Azərbaycan, Bakı, Şamaxı, Gəncə, Quba, Şəki, Ağsu, Qəbələ, Şabran, Ordubad, Muğan, Beyləqan, Sarı ada və s. yer adlarının mənşəyinə dair dəyərli mülahizələr irəli sürmüşdür.

Azərbaycan onomastik tədqiqatlarının tarixində A.Bakıxanovun da böyük xidmətləri vardır. O, "Gülüstani–İrəm" əsərində bir sıra Azərbaycan tayfa (Zəngəzur, Bayat, Çakərlu) və yer adları (Zığ, Alpan, Şamaxı, Quba)

---

[1] Qurbanov A. M. Azərbaycan onomalogiyasının əsasları. II c. Bakı, Nurlan, 2004, s. 129.

[2] Qurbanov A. M. Azərbaycan onomalogiyasının əsasları. II c. Bakı, Nurlan, 2004, s. 130.

[3] Yenə orada, s.132.

haqqında maraqlı fikirlər söyləmiş, tarixçi-ədib sərkərdə bu haqda yazmışdır: "Əgər ölkənin qəbilələri, kəndləri, binaları və qədim hasarı geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır" [1].

Azərbaycanda etnonimlərin tədqiqatına dair materiallara A.Bakıxanovla yanaşı M. Vəliyev, Ə.Dəmirçizadə, Z.Bünyadov, M.Seyidov, Y.Yusifov, Q.Qeybullayev, Ə.Hüseynzadə, Ə.Əliyev, R.Eyvazova, Q.Məşədiyev, M.Mirzəyev, F.Xalıqov və başqalarının əsərlərində də rast gəlmək mümkündür.

Onomastik vahidlərin arasında mühüm yer tutan antropotoponimlərin tədqiqi, onların mənşəyinə aid maraqlı fikirlər T.Hacıyevin, M.Adilovun, O.Mirzənin, Z.Sadıxovun, Ə. Tanrıverdi və başqa dilçilərimizin əsərlərinin ana xəttini təşkil edir.

Azərbaycan hidronimlərinin öyrənilməsi sahəsində Ə.Dəmirçizadənin, K.Əliyevin, N.Məmmədovun, N.Əsgərovun, V.İsrafilovun monoqrafiya və məqalələri mühüm rola malikdir.

80-ci illərdən üzü bəri onomaloji tədqiqatlar aparmış H. Mirzəyev tarixi həqiqətləri, obyektiv tariximizi gələcək nəsillərə çatdırmaq üçün "Azərbaycan toponimləri və şivə sözləri", "Dərələyəz mahalının toponimləri və şivə sözləri" və digər kitablarını, 100-dən artıq məqaləsini məhz bu mövzuya həsr etmişdir. "Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz" kitabı H. Mirzəyevin bu mənada qələmə aldığı el ədəbiyyatı ilə bağlı düşüncələrinin bir qismini əhatə edir.

Bundan başqa B.Xəlilovun, İ.Bayramovun, A.Bayramovun, N.Əsgərovun, V.İsrafilovun, H.Hüseynovanın, K.Səmədovanın tədqiqatlarını da bu qism tədqiqatlara aid etmək olar [2]. Aydındır ki, heç bir əsər onomastik vahidsiz mümkün deyil. Onomastik vahidlərin tədqiqini bir neçə cəhətdən əhəmiyyətli hesab etmək olar: a) dilin lüğət tərkibinin bütövlükdə xarakteristikasını vermək üçün onomastik vahidlərin tədqiqi son dərəcə vacibdir; b) onomastik vahidlərin çoxunda indi dildə olmayan forma və anlayışların izi qaldığına görə, bunların tədqiqi dilçiliyin ən mürəkkəb və mühüm sahəsi hesab edilərək dil tarixi, dialektologiya və üslubiyyat üçün zəruri faktlar verə bilər; c) onomastik materialın öyrənilməsi dilçiliklə yanaşı, tarix, etnoqrafiya, sosiologiya və coğrafiya elmlərinin bir sıra problemlərinin açılmasına kömək edir və s.

---

[1] Bakıxanov A. Gülüstani-İrəm. Ərgünəş, Bakı. 2011. s. 31

[2] Bayramov İ. M. Aşıq Ələsgər yaradıcılığında onomastik vahidlər. AOP, III, Bakı, 1990, s. 242-243

Onomastik tədqiqatların təşəkkül tarixi yaxın keçmişimizə aid olduğundan bu sahədə Azərbaycan dilçiliyində həll olunmamış məsələlər vardır. Müxtəlif dövrlərdə yaşamış yazıçı və şairlərimizin yaradıçığında xüsusi adların öyrənilməsi yolu ilə həmin sənətkarın yaradıçılığının dil qanunauyğunluqlarını, onomastik sistemin səviyyəsini öyrənmək mühümdür

Elçin Əfəndiyevin yaradıcılığında poetik onomastika problemlərini, xüsusi adların bədii əsərlərdəki rolunu, üslubi cəhətlərini öyrənmək yazıçının bədii irsini öyrənmək qədər əhəmiyyətlidir.

Birinci fəslin ikinci yarımfəsli **“Elçin Əfəndiyevin yaradıcılığında işlənən xüsusi adlar** (dilçiliyin onomastika sahəsinə gətirdiyi kompleks yeniliklər-töhfələr)**”** adlanır. Elçin yaradıcılığı xüsusi adlarla olduqca zəngin olduğundan, onun yaradıcılığında onomastik vahidlərin bütün qruplarına aid nümunələrə rast gəlmək mümkündürBu bölmədə Elçinin yaradıcılığında işlənmiş onomastik vahidlər qruplar üzrə tədqiq edilir: 1. Antroponimlər, 2.Etnonimlər, 3. Toponimlər, 4. Hidronimlər, 5. Zoonimlər, 6. Kosmonimlər, 7. Ktematonimlər.

Elçin yaradıcılığnda işlənən antroponimlər: Ədibin yaradıcılığında olduqca zəngin antroponimik leksikaya rast gəlmək mümkündür. Qeyri-adi bədii antroponimlər olduğundan belə adlara Elçin yaradıcılığında, demək olar ki, rast gəlinmir. Onun bütün qəhrəmanları real, həyati obrazlardır.

Həmin antroponimlərin mənşəyinə diqqət yetirsək, burada milliliklə bərabər zəngin ərəb, fars və rus-Avropa mənşəli antroponimlərin mövcudluğunun şahidi olarıq. Bu, əlbəttə ki, yazıçının dünyagörüşünün, onun nəinki Azərbaycan, hətta dünya ədəbiyyatı və mədəniyyəti ilə yaxından tanış olmasının göstəricisidir. Elçinin yaratdığı antroponimlər müxtəlif insan simalarını və xarakterlərini maraqlı şəkildə özündə birləşdirir ki, bu da onun güclü müşahidəçilik qabiliyyətindən xəbər verir. *Məleykə, Safura, Səməd, Məlik, Sənubər, Kərim, əmioğlu Bəylər, xalaqızı Mədinə, Məlekə xanım və s.*

Yazıçı Elçin yaradıcılığında zoonimlərdən də istifadə etmiş, onların bədii–üslubi imkanlarından faydalanmışdır. Məs.; “Dolça” hekayəsində “Dolça” itə verilən addır.

Kosmonimlər: Dilimizdə səma cisimlərinin adlarını bildirən sözlərin mövqeyi xüsusidir. Səma cisimləri dedikdə Günəş, Ay, Yer, ulduzlar, bürclər, kraterlər və s. nəzərdə tutulur. Şübhəsiz ki, müxtəlif planetlərə, bürclərə, ulduzlara verilən adlar şərti - ləqəb xarakteri daşıyır. Astronomik adlar, ümumiyyətlə şərq ədəbiyyatında çox geniş yayılmışdır. Belə

adlardan biri də Zöhrədir. M. H. Təhmasib yazır: "Zöhrə - qədim mədəniyyətə malik bütün xalqlarda, həm ilahə-məbdud, həm də onun atributu olan ulduz kimi müqəddəs sayılmışdır. Qərinələrdən gələn təsəvvürlərə görə, Gözəl qız – qadın şəklində təsəvvür edilən Zöhrə qədim şümerlərdən başlayaraq Romada, Yunanıstanda, İranda, Babildə, Ərəb dövlətlərində, eləcə də Zaqafqaziya xalqlarında məhəbbət, su, məhsuldarlıq, gözəllik, musiqi, rəqs ilahəsi kimi təsdiq olunmuş, onun hətta su köpüyündən yarandığı da zənn edilmişdir [1]. Elçin yaradıcılığında az rast gəlinən kosmonimlər bunlardır: *Dan yeri; Suheyl ulduzu* və s.

Ktematonimlər. Azərbaycan dilində maddi-mədəniyyət abidələrinin elm və texnika, mədəniyyətlə bağlı əsərlərin, xüsusi əşyaların, fəxri adların, inzibati idarə, təşkilat və s.-in adını bildirən yüzlərlə onomastik vahid buraya daxildir. Ktematonimlər indiyədək, demək olar ki, dilçilik tədqiqat larından kənarda qalmışdır.

Elçin yaradıcılığında ktematonimlərin - xrononimlərin yaranmasının özünəməxsus prinsipləri vardır. Bunlardan bir neçəsini nəzərdən keçirək:"Oktyabr bayramı", "Bahar bayramı", "Bilik günü" və s.

Xrononimlərin yaranmasında əsasən, saylar iştirak edir: *31 Dekabr həmrəylik günü.*Tarixi hadisələrin, siyasi dövrlərin əsas mahiyyəti xrononimlərin semantik sferasında mütləq əks olunur: Məs. *"20 Yanvar", "Şəhidlər günü"* və s.

***3.*** İdeonimlər. Elm, mədəniyyət, bədii ədəbiyyatla bağlı əsərlərin və digər materialların, nəşriyyat, mətbuat və s. adını bildirən onomastik vahidlər ideonimlərdir. Dilimizin onomastik leksikası və Elçinin yaradıcılığı bu cür adlarla çox zəngindir. Həmin adları aşağıdakı qruplara bölmək olar: *nəşriyyat, qəzet və jurnal, bədii əsər adları və s.*

Elçinin hekayələrinin adlarına nəzər salaq: Sarı gəlin", "Qarabağ şikəstəsi", "Dolça" hekayələriilə tanış olduqda məlum olur ki, yazıçı onların heç birinə təsadüfi deyil, əsərin ideyasına, məzmununa uyğun ad seçmişdir ki,bu da Elçin yaradıcılığına xas ən sadə və uyğun manevrdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bədii əsərə adqoyma uğurlu olduqda bu, yazıçının dildə yeni ifadə tərzi yaratması hesab olunmalıdır. "Elçinin yaradıcılığında da bir çox hekayələri, xüsusən də "Baladadaşın ilk məhəbbəti" əsərinin adı da olduqca maraqlı alınmışdır.

---

[1] Əlizadə Z. Atalar sözlərində onomastik layın sintaktik və semantik xüsusiyyətləri. AOP, elmi-onomastik jurnal, III, Baki, 1990 , s.232.

Tədqiq olunan əsərlərdəki ktematonimlərin bir sıra özünəməxsus xüsusiyyətləri vardır: 1.Ktematonimlər, əsasən, müvafiq orqanlar, təşkilatlar tərəfindən qərarlaşdırılır və rəsmi ad kimi çıxış edir. 2. Ktematonimlər əks etdirdiyi obyektin mahiyyətinə uyğun yaranır. Məs; bədii əsər adlarının, idarə və təşkilat və s. 3. Ktematonimlərin bir qrupu simvolik xarakter daşıyır. Musiqi, rəqs kollektivlərinin adları məhz bu tiplidir.

Bundan başqa Elçinin Əfəndiyevin yaradıcılığında işlənmiş digər qrup onomastik vahidlər: hidronimlər, etnonimlər, zoonimlər və s. də tədqiqata cəlb edilmişdir.

**II fəsil "Elçin Əfəndiyevin yaradıcılığındakı onomastik vahidlərin leksik- semantik xüsusiyyətləri**" adlanır və dörd yarımfəsildə antroponim, toponim, ktematonim və onomastik vahidlərin digər qrupları tədqiq edilmişdir.

**Birinci yarımfəsildə** antroponimlərin leksik-semantik xüsusiyyətləri araşdırılır. Elçinin yaradıcılığında işlənmiş adlar konkret müəyyən məqsədə xidmət edir. Ad bədii obrazı adlandırmaq, yeri gəldikdə, onu səciyyələndir- mək üçün işlənir. Buraya bütün dram, roman, hekayələrdə və s. işlənən adları daxil etmək olar. Yazılı ədəbiyyatda sənətkarlar adlardan iki istiqamətdə istifadə edirlər:1. Xalq tərəfindən yaranan dövlət sənədlərində əks olunan real onomastik vahidlər; 2. Ancaq yazıçının öz yaradıcılığının məhsulu olan poetik onomastik vahidlər.

Şəxs adları vasitəsilə müəyyən tarixi hadisələr, yerlər, şəxslər haqqında oxucuda real təsəvvür yaradılır."Əzizimin cəfası" romanında həm real, həm də qeyri-real, uydurma antroponimlər işlənmişdir. Burada Murad İldırımlı yazıçı təxəyyülünün məhsuludursa, Aleksandr Sergeyeviç Puşkin, Leonid İliç Brejnev, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Sov.İKP.MK. katibi K.U.Çernenko, Büronun üzvləri: V.V.Qrişin, A.N.Kosigin, K.T.Mazurov, A.Y.Pelşe, M.A.Suslov və başqaları real tarixi şəxsiyyətlərin adlarıdır.

Elçinin əsərlərində represiya dövrünün tarixi şəxsiyyətləri dönə-dönə xatırlanmışdır.

Elçin "Mahmud və Məryəm" əsərində ənənəyə sadiq qalmış, simvolik qoşa işlənən adlardan istifadə etmişdir "Əsli və Kərəm"in motivləri əsasında Elçinin qələmə aldığı "Mahmud və Məryəm" romanı realist yazıçının yaratdığı dastandır. Romanın bütün strukturuna hopmuş aydınlıq, sadiqlik, xəlqilik, humanizm, bəşərilik, kamillik "Mahmud və Məryəm" i dastan adlandırmağa imkan verir.

Antroponimik vahidlərin bir hissəsi ləqəblərdən ibarətdir. Ləqəblər antroponimik sistemdə köməkçi adlar qrupuna daxildir. Antroponimik vahidlərin bir hissəsi də öz növbəsində ləqəblərdən ibarətdir. Elçin yaradıcılığında da obrazlara maraqlı ləqəblər verilmişdir: "Qarabağ Şikəstəsi" hekayəsində-Qızıldiş Cümşüd, Malıbəyli Köhnə Qaval İsgəndər, Bolelşik Bufetçi, İbadulla, Avtobus Ağadadaş; "Sürpriz kababı" əsərində - Gümüş Malik, Qızıl Malik, Kitabxanaçı Nəcəf, Qəssab Ağakişi, kitabxanaçı Nəcəfin anası Əlibaba arvad, Hambal İsrafil...

Ədibin yaradıcılığında antroponimik sistemin bir qolunu təşkil edən təxəllüslər də özünəməxsus yer tutur. Antroponimlərin leksik-semantik xüsusuiyyətlərinin tədqiqi zamanı Elçin yaradıcılığında 7500- dən yuxarı təkrar olunan antroponimə rast gəldik.

**İkinci fəslin ikinci yarımfəsli "Toponimlərin leksik-semantik xüsusiyyətləri"** adlanır. Bu yarımfəsildə bizim məqsədimiz Elçinin yaradıcılığı boyu istifadə etdiyi və üslubi məqsədlə özünün yaratdığı toponimləri tədqiq etməkdir. A.Qurbanov toponimlərin bir neçə qrupunu müəyyən etmişdir: 1.Oykonimlər; 2.Oronimlər; 3.Xoronimlər; 4.Urbanonimlər; 5. Dromonimlər.

D.Əliyeva toponimləri xarakterizə edərək demişdir: "Keçmişin şahidi olan toponimlər uzaq dövrlərin əks-sədası kimi ən qiymətli tarixi abidələr içərisində şərəfli yer tutmaqla yanaşı, etnogenez məsələlərinin araşdırılmasında çox qiymətli mənbə, tarix elmi üçün arxeoloji material timsalı, dəyərli maddi mədəniyyət qalığıdır"[1]. Azərbaycanlı toponimist T.M.Əhmədov isə "... toponimlər bizim keçmişimizdir...." fikrini söyləmişdir [2].

L.Piriyevanın isə məsələyə bir qədər fərqli münasibəti vardır. O, toponimləri reallığına və qeyri-reallığına görə qruplaşdıraraq aşağıdakı kimi təsnifat aparır. a) real toponimlər, b) real bədii toponimlər, c) qeyri-real (uydurma) bədii toponimlər. Əslində, bədii əsərlərdə toponimlərin real və qeyri-real olmasına görə tədqiqi ən ağlabatan üsuldur. Elçinin yaradıcılığı boyu onun istər hekayələrində, istər povest və romanlarında

---

[1] Əliyev K. Bədii adların üslubi xüsusiyyətləri. AOP elmi-onomastik jurnal, , I bur, Bakı, 1987; Əliyeva D. Toponimlərin üslubi-linqvistik xüsusiyyətləri. Bakı, Maarif, 2008; Əliyeva D. M. S.Ordubadinin romanlarında onomastik vahidlərin linqvistik xüsusiyyətləri. Bakı, 1996, Nam.dis.

[2] Əhmədov T. Azərbaycan coğrafi nomenli hidronimlərin yaradılmasında sifət, feli sifət və saylardan istifadə. Azərbaycan dili monoqrafiyasının aktual problemləri. Bakı, 1987, s.5.

xeyli, müxtəlif toponimlərə rast gəlirik. Bu zənginlik, təbii ki, yazıçı təfəkkürünün zənginliyi ilə bağlıdır: Gəncə, Qarabağ, Qafan, Ordubad, Naxçıvan, Qazax, Göyçə, Azərbaycan, Şirvan, Təbriz, Çuxursəd, Bağdad, İraq, Xankəndi... və s. bunlara nümunə ola bilər.

Dil mənsubiyyətini nəzərə alsaq, Elçinin yaradıcılığındakı toponimləri aşağıdakı qruplara bölmək olar: 1. Azərbaycan-türk mənşəli toponimlər: Abşeron, İstanbul, Azərbaycan, Bakı, Bərdə, Quba şəhəri və s. 2. Ərəb-fars mənşəli toponimlər: Kərbəla, Xorasan, Mərənd, Məqrib, Xoy, Suriya, İran, İraq, Qüds və s. Ərəb-fars mənşəli toponimik vahidlər Elçinin yaradıcılığında digər adlara nisbətən az işlənmiş, reallığı qorumaq məqsədi daşımışdır.3. Rus-Avropa mənşəli toponimlər. "Qatar"- Moskva, Paris, Lenin meydanı, Rusiya, London, Barnaula, Amerika, Leninqrad; "Araba" - ABŞ, Kiyev, Norveç, Avropa, Nyu-York, Manhettin, BMT.

Elçin yaradıcılığındakı toponimləri aşağıdakı qruplara bölmək olar: 1. Ən qədim toponimlər, 2. Qədim toponimlər, 3. Müasir toponimlər.

"Azərbaycanın ən qədim və qədim toponimləri çox mötəbər dil faktlarıdır. Bunların dərin linqvistik təhlili əsasında ümumən Qafqazda, xüsusilə Azərbaycan ərazisində türkdilli tayfaların yaşaması tarixini müəyyən mənada aydınlaşdırmaq olar" [1].

İkinci fəslin **üçüncü yarımfəslində "Ktematonimlərin leksik-semantik xüsusiyyətləri"** tədqiqata cəlb edilmişdir. Azərbaycan dili zəngin ktematonimik sistemə malikdir.Elçin yaradıcılığında həmin dil vahidləri müxtəlif məqsədlərlə işlədilmişdir: Fransız ətri "Emprinte", Kalaşnikov tüfəngi, "İkarus" avtobusu, "Admiral Naximov" gəmisi, "Avropa" siqareti, "Volqa" maşını, "Jiquli" maşını və s. Yazıçı əsərlərində ideonim və erqonimlərə daha çox yer verilmişdir. Erqonimlər yazıçının bir dövlət xadimi kimi dövlətin, siyasətin öncüllərindən olduğunu bir daha sübut edir.

**İkinci fəslin növbəti** yarımfəslində Elçin yaradıcılığında işlənmiş **"Etnonim, hidronim, kosmonim, fitonim və zoonimlərin leksik-semantik xüsusiyyətləri"** tədqiqata cəlb edilmişdir.

Elçin yaradıcılığında etnonimlərə antroponim, toponim və ktematonimlər kimi geniş yer verməsə də, müəyyən bir qism etnonimlərə təsadüf edildi. Yazıçının"Mahmud və Məryam" romanına nəzər salaq. Elçinin "Mahmud və Məryəm" romanında adı çəkilən tayfalardan biri *padarlardır*. M. H. Vəliyevin əsərində padarlar ən məşhur oğuz

---

[1] Qurbanov A. Azərbaycan onomalogiyası əsasları. I c. Bakı, Nurlan , 2004, s.115.

tayfalarından biri kimi təqdim edilir və göstərilir ki, Elxanilər dövründə padarlar Orta Asiyadan Azərbaycana köçürülmüş, əvvəllər Cənubi Azərbaycanda yaşamış, XVI-XVII əsrlərdə bir hissəsi dağıstanlıların qarşısını almaq məqsədilə Şimali Azərbaycana köçürülmüşlər [1].

Elçin yaradıcılığında, əsasən də "Mahmud və Məryəm" əsərində aşağıdakı etnonimlərlə rastlaşırıq: Səfəvilər, Bayat tayfaları, Qızılbaş əmirləri, Osmanlı torpağı, Qararbağ bəylərbəyliyi, Padarlar, Ağqoyunlular, Amatilər, Ağdədəli məhəlləsi – genonim, Ərimgəldi məhəlləsi – genonim), Bayandur bəy, Xan Məhəmməd Ustaclı, Çərikbaşı ("Mahmud və Məryəm"), Kələntərlər və s. Yazıçı yaradıcılığı boyu bir sıra hidronim və kosmonimlərdən də xüsusi üslubi məqamlarda istifadə edilmişdir.

**III fəsil "Elçin Əfəndiyevin yaradıcılığında işlənmiş onomastik vahidlərin qrammatik xüsusiyyətləri"** adlanır. Burada iki yarımfəsildə Elçinin yaradıcılığında işlənmiş onomastik vahidlərin morfoloji və sintaktik xüsusiyyətləri tədqiq edilmişdir."Azərbaycan diliçiliyində söz yaradıcılığının bir neçə üsulu vardır: leksik, semantik, morfoloji və sintaktik. Onomastik leksikanın bütövlükdə derivatoloji təhlili göstərir ki, əslində, dilçilikdə başlıca olaraq, iki mühüm söz yaratma üsulu mövcuddur: 1) leksik-semantik, 2) qrammatik[2]. Elçinin yaradıcılığında da bu rəngarənglik özünü göstərir:

1. Leksik üsulla ad yaradıcılığı: Antroponimlərdə leksik yolla sözyaratma prosesi daha çox özünü göstərir. Məs.; lalə, sünbül, tovuz və s. tipli apelyativlər şəxs adları kimi işləndikdə həmin sözlərin semantikasında yeni məna çalarları əmələ gəlir. Elçinin yaradıcılığında toponim və hidronimlərdə leksik yolla sözyaratma nisbətən az məhsuldardır. Çünki bu coğrafi obyektlərdə adlandırma müəyyən məna əsasında baş verir[3].

2. Semantik yolla sözyaratmada xüsusi adlar konversiya yolu ilə yaranır. Semantik üsulla əmələ gəlmiş onomastik vahidlərin başlıca xüsusiyyəti bu prosesdə bir nitq hissəsinə məxsus sözlərin başqa nitq hissəsinə keçməsidir. Burada a) sifətin ismə keçməsi; b) feilin ismə keçməsi və s. hallar baş verir [4].

---

[1] Валиева М.Н. Бахарлы Население Азербайджана музей этнографических сокровищ Азербайджанский настольный календарь. Баку, 1925, s. 398-399

[2] Qurbanov A. M. Azərbaycan onomalogiyasının əsasları. II c. Bakı, Nurlan, 2004, s.365.

[3] Məşədiyev Q. Nitq hissələrinin semantikası. (Oçerklər) Bakı, Elm, 1998, s.162.

[4] Mollazadə S.M. Azərbaycan şimal rayonlarının toponimiyası. Bakı, Elm, 1979. s.450.

3. Morfoloji yolla yaranan onomastik vahidlərdə əsas model kök + şəkilçi modelidir. Bu haqda da tədqiqatçıların müxtəlif fikirləri olmuşdur[1].

Azərbaycan dilində leksik şəkilçilər, eləcə də leksik-qrammatik şəkilçilər xüsusi adların yaranmasında fəal iştirak edir. Bu şəkilçilərin içərisində daha fəal işlənən şəkilçilər aşağıdakıladır.1) -lı$^4$, 2) -ıstan, 3) -lıq$^4$, 4) -çı$^4$, 5) -ış$^4$, 6) -ı$^4$, 7) -ım$^4$, 8) -cıq$^4$, 9) -an$^2$, 10) -ar$^2$ (r), 11) -lar$^2$, 12) -laq$^2$, 13) -maz$^3$, 14) -ça$^2$, 15) -ca$^2$, 16) -çın$^4$, 17) -qın$^4$, 18) -ə, 19) -ş və s. Bu şəkilçilər vasitəsilə müxtəlif apelyativ vahidlər yarandığı kimi, onomastik vahidlər də əmələ gəlir.

4. Sintaktik üsulla yaranan onomastik vahidlər mürəkkəb analitik üsul adlanır. Yəni burada iki və daha artıq söz müxtəlif münasibətlər əsasında birləşərək bir mürəkkəb leksik vahid əmələ gətirir, iki istiqamətdə müşahidə olunur: 1. sırf sintaktik qaydada ad yaratma. 2. sintaktik-morfoloji qaydada ad yaratma.

Sırf sintaktik qaydaya aid modellərdən kök + kök, kök + kök + kök və s. modellərinin özünəməxsus xüsusiyyətləri var. Sintaktik-morfoloji qaydada yaranan xüsusi adların da özünəməxsus modelləri var. Burada kök + kök + şəkilçi ; kök + şəkilçi + kök; kök + kök + şəkilçi + şəkilçi; kök + kök + kök + şəkilçi; kök + şəkilçi + kök + şəkilçi[2]. Bu modellərin onomastik vahidlərin yaranma yollarının öyrənilməsində böyük əhəmiyyəti və rolu vardır.

Sadə onomastik vahidlər bir kökdən ibarət olur.Elçin yaradıcılığında sadə adlar digərlərinə nisbətən azdır və lakonikliyə xidmət edir. Yazıçının əsərlərindəki Fərman, Nisə, Səfər, Roza, Ələkbər, Nəsir, Kəriş və s. kimi adlar bu qəbildəndir.

Düzəltmə onomastik vahidlər kök və şəkilçidən ibarət olur. Məs., Qaravolçu, Nəcəfəli, Fətullagil və s. adlara təsadüf edilmişdir. Mürəkkəb quruluşlu onomastik vahidlər digər adlara nisbətən çoxluq təşkil edir: Qeysəbdül, Baladadaş, Məsməxanım və s.

Elçin yaradıcılığında leksik üsulla yaranan antroponimlər: məs., “Toyuğun diri qalması”- nda Nisə adı: Bu, bildiyimiz kimi, “Qurani-Kərim” də Nisa surəsi ilə bağlıdır, ümumi sözdən xüsusi ad yaranıb. Həmin əsərdə Səfər adı da işlənmişdir. Bu ad da Qurani Kərimin “Səfər” surəsi ilə

---

[1] Cəfərov S. Müasir Azərbaycan dili, Bakı, Maarif, 1970, s.155.

[2] Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I c. Bakı, Nurlan, 2004, s.469.

əlaqədardır. Semantik üsulla xüsusi sözlər ümumidən konversiya yolu ilə yaranır: I. **Sifətin substantivləşməsi**: Gicbəsər, Şirin, Qaratel ("Əbdül Qafarzadə"), Adil ("Mahmud və Məryəm"), Bədiheybət, Əsmər, Əzizağa, Şirinxanım, Təlxək, Müqəddəs Qoca və s. də maraqlı prosesdir. **II. Sayın substantivləşməsi**:Vahid Bədheybət və s. Semantik yolla yaranan adlar daha çox ləqəblərin birinci tərəfində öz əksini tapır. Məs.: *Beşbarmaq* Əsədağa, Çopur Nəcəfquluzadə ("Çopur əlaməti"), ("Sonbeşik Böyükxanım") *Sonbeşik; Quşvuran* Fazil, *Gödəkboylu* professor və s.

Morfoloji üsulla yaranan antroponimlər Elçin yaradıcılığında özünəməxsus xüsusiyyətləri ilə seçilir. Onun əsərlərində yuxarıda qeyd etdiyimiz şəkilçilərin bir çoxu iştirak edir. Bəzi dilçilər morfoloji yolla onomastik vahidlərin yaranmasını qəbul etmirlər, hesab edirlər ki,şəkilçi onun onomastik vahidə çevrilənə qədərki tərkibində olur.

Elçinin antroponimik sistemini zənginləşdirən adların yaranmasında fəal olan morfoloji əlamətlər aşağıdakılardır:

**1. -lı$^4$**. Güllü, Kazımlı, Mürsəlbəyli, Qəribli, Bozdağlı, Saqlı, İldırımlı. **2. -lıq$^4$.** Bu şəkilçi digər budaq morfemlərə nisbətən az məhsuldar olmuşdur. Məsələn, Məcnunluq...**3. -çı$^4$**. Kitabxanaçı Nəcəf, Qarovulçu Əflatun, Süpürgəçi Nastya,Yolçu. **4. -ı$^4$.** Məşədi, Gülcahani, Burari, **5. -keş**. Xarkeş Mahmud. **6.-an$^2$**. Mərdan.**7. -muş**. Durmuş xan. **8. -ak$^2$**. Rövşənək. **9. -lar$^2$**. Bəylər. **10. -maz$^2$**. Solmaz. **11. -man**. Salman. **12. -gil**. Fətullahgil, Ağagil, İbrahimgil. **13. -a$^2$**. Amalə, Bədurə, Səfurə, Tahirə, Mövlanə. **14. -ski.** Trotski, Mayakovski, Menyinski... **15. -ula.** Fətulla, Abdulla, Əsədulla, **16. -andə, -əndə**. Fəxrəndə. **17. -ullah**. Fərəcullah, Kəlimullah...

Elçin yaradıcılığında mürəkkəb analitik-sintaktik yolla yaranan antroponimlər daha çox üstünlük təşkil edir. Qeyd etdiyimiz kimi, A. Qurbanov sintaktik yolla əmələ gələn onomastik vahidləri iki qrupa bölmüş, onların müxtəlif modellərini göstərmişdir.

Yazıçının yaradıcılığındakı antroponimləri nitq hissələrinin iştirakı baxımından araşdırarkən aşağıdakı xüsusiyyətlər daha çox diqqəti cəlb edir: 1.İsimdən yaranmış adlar: *Qızıl Musayev, Norveçli Dürdanə.*2. Sifətdən əmələ gəlmiş antroponimlər: *Safura, Məleykə, Nəcibə, Bufetçi, Şirinxanım.* 3. Feildən düzəlmiş şəxs adları: *Solmaz.*4. Saydan düzələnlər: *Beşbarmaq, Zərfdən, hətta nidadan əmələ gələn adlar vardır.*

Elçin Əfəndiyev yaradıcılığında antroponimlər içərisində *elliptik* - adlara da rast gəlinir: məs. Müseyif – Müsü ("Göy üzünün ulduzlu vaxtları" hekayəsindən) və s.

Elçinin yaradıcılığında rast gəldiyimiz ləqəblərin bir sıra əlamətdar xüsusiyyətləri var. Onların bir qrupunda *prepozitiv* – ( addan öncəki. ) məs. Bağban Ağasadıq, digərləri isə *pospozitiv* – (addan sonrakı ) məna dayanmışdır. Onun əsərlərində həmçinin ləqəblərlə bərabər çox maraqlı titullar da işlədilmişdir.

Tədqiq etdiyimiz əsərlərdə antroponimlərin qrammatik qayda ilə yaranmasına aid nümunələr xeyli çoxdur. Bundan başqa, yuxarıda qeyd etdiyimiz kimi, yardımçı sözlərdən geniş istifadə edilmişdir. Eyni zamanda adların yaranmasında nitq hissələrinin də rolu, iştirakı müxtəlifdir: 1. *isim+isim:* Xalaqızı, Baladadaş, Atabala "Toyuğun diri qalması", Nuhbala...2..*Xüsusi isim+xüsusi isim:* Qeys Əbdül, Əliheydər, Məmməd Hüseyn ("Görüş"). *3.İsim+feili sifət:* Xörəkpaylayan, Nağaraeşən, Narsatan, Karvanqıran və s.*4.Sifət + isim:* Bozdağlı, Qırmızı burun. *5.Xüsusi isim+feil:* Məmmədbağır

Elçin Əfəndiyevin yaradıcılığında toponimlərin əksəriyyəti ya düzəltmə, ya da mürəkkəb quruluşludur:1.Leksik yolla yaranmış toponimlər. *a) leksik yolla yaranmış toponimlərə Lenin meydanı ("Qatar" hekayəsi), Bakı Pasajı, "Pera Palas" oteli, Qapalı çarşı "Sabunçu vağzalı" Respublika sarayı, "Reqal Y.N.Plaza" oteli ("Sarı Gəlin"), Hidro Elektrik Stansiyası, Topxana meşəsi, Cıdır düzü və s. b) Qəbilə, tayfa adlarından əmələ gələn toponimlər:* Ağdədəli məhəlləsi ("Qarabağ şikəstəsi"), Osmanlı torpaqları, Bayandurlar məhləsi ("Mahmud və Məryəm"). *c)Şəxs adlarından əmələ gələn toponimlər:* Əsgəran... *ç) Memorial toponimlər.* 2.*Morfoloji yolla yaranmış toponimlər.* Məlum olduğu kimi, morfoloji yolla yaranmış toponimlər müxtəlif sözdüzəldici və sözdəyişdirici şəkilçilər vasitəsilə düzəlmiş adları əhatə edir. Elçin yaradıcılığında müşahidə etdiyimiz məhsuldar morfoloji göstəricilər aşağıdakılardır:

*I. -lı$^{4}$ (-li, -lu, -lü) şəkilçiləri ilə yaranan toponimlər.* Azərbaycan dilində bu şəkilçi geniş funksiyaya malikdir. S. Cəfərov bu şəkilçinin söz yaradıcılığında altı funksiyasını qeyd etmişdir. Lakin toponimiyada bu şəkilçinin bütün funksiyaları rol oynamır[1]: Əhməd**li** qəsəbəsi ("Əzizimin cəfası"), İsmayıllı ("Hər şey keçib gedir") və s.

II. -çı$^{4}$ şəkilçisi ilə yaranan toponimlər: "Bəzi adların yaranmasında bu şəkilçi sənət, peşə məzmunu bildirirsə, digərində mənsubiyyət mənası

---

[1] Hacıyev T.Sənət düşüncələri. Bakı.1997. s.20.

ifadə edir”[1]; Kömürçü meydanı, Sabunçu (“Qonaqlıq”), “Sabunçu” vağzalı (“Ölüm hökmü”).

III. -stan şəkilçisi ilə yaranan toponimlər: Gürcüstan, Dağıstan, Yunanıstan, Talıstan (“Əbdül Qafarzadə”), Əfqanıstan (“Ölüm hökmü”).

IV -an[2], -lan şəkilçisi ilə yaranan toponimlər: Elçin yaradıcılığında Azərbaycan dilindəki -an, -ən, -lan, -lən şəkilçiləri ilə düzəlmiş toponimlərdaha çoxdur. Məsələn, Mərdəkan, Şüvəlan, Əsgəran (“Tonqal”), Nardaran (“Toyuğun diri qalması) və s.

Ktematonimlər, əsasən, mürəkkəb quruluşludur. Ktematonimləri onomastik tərkibdə fərqləndirən cəhətlərdən biri məhz budur. Belə bir cəhət diqqətimizi cəlb etdi ki, yazıçı öz əsərlərinə verdiyi adlara daha diqqətlə, məsuliyyətlə yanaşmışdır.

Tədqiqat göstərir ki, təkcə “Mahmud və Məryəm” əsərinə 25 ktematonim daxil edilmişdir. Məs.: Bunlardan yalnız leksik yolla yarananlara “Kəlilə və Dimnə”, “Qabusnamə”, Sofinin nağılları” və digər əsərlərində: “Oqonyok” jurnalı, “Segah” muğamı, “Sarı bülbül” mahnısı, “Şur dəsgahı” muğamı kimi ktematonimləri göstərmək olar. Elçin yaradıcılığını izləyərkən müşahidə edildi ki, etnonim, zoonim, hidronim və kosmonimlər digər növlərə nisbətən az işlənmişdir.

**Üçüncü fəslin ikinci yarımfəsli “Elçinin yaradıcılığında işlənmiş onomastik vahidlərin sintaktik xüsusiyyətləri”** adlanır. Biz Elçinin yaradıcılığında aşağıda göstərilən modellərdə adlara rast gəldik: 1. Kök+kök: Əlinəcəf, Nəcəfəli, Ağadadaş, Baladadaş, Qeysəbdül, Şirinxanım, Nazxanım... 2. Kök + kök + kök: Üç kökdən düzələn mürəkkəb onomastik vahidlər Elçinin əsərlərində yox dərəcəsindədir. Sintaktik-morfoloji yolla yaranan xüsusi adların modelləri və onlara aid olan nümunələr çox və rəngarəngdir: 3. Kök + kök + şəkilçi. Malıbəyli, Çərikbaşı, Aysulu, Quyuqazan və digər nümunələr göstərilən modelə uyğundur. 4. kök+kök+şəkilçi+şəkilçi. Həsənqulular,Qaramuradlılar və s. 5. kök+şəkilçi+kök. Duzlu göl, Sulu dərə, Nurlu bulaq və s.

Göstərilən modellərdən Elçinin əsərlərində ən çox yayılanı, intensiv işlənəni sırf sintaktik üsula uyğun kök+ kök modeli və sintaktik- morfoloji üsula uyğun olan kök + kök + şəkilçi modelidir.

[1] Hacıyeva N. H. Cavid pyeslərində şəxs adlarının vokativ funksiyası. AOP, elmi-onomastik jurnal, III, Bakı, 1990, s.42.

Dissertasiyanın dördüncü fəsli **“Elçin Əfəndiyevin yaradıcılığında işlənmiş onomastik vahidlərin üslubi xüsusiyyətləri**”dir. Burada Elçinin bədii yaradıcılığında üslubi funksiyaları ilə seçilən antroponim və toponimlər iki yarımfəsildə tədqiq edilmişdir.

“Antroponimlərin üslubi xüsusiyyətləri” yarımfəslində qeyd olunur ki, Elçinin yaradıcılığında obrazlarına verdiyi adlar istər real, istər uydurma adlar, istərsə də obrazlara verdiyi ləqəblər yazıçının yüksək sənətkarlığından söz açır. Bu əsərlərdə antroponimlərin işlənməsi ilə əlaqədar bəzi məqamları xüsusilə vurğulamaq məqsədəuyğundur:1) Yazıçı bir qism epizodik obrazları umumi sözlərlə adlandırır . Məsələn, “Dəlixanadan dəli qaçıb” əsərində professor, siyasi icmalçı, katibə, şəfqət bacısı və s. a) *Siyasi icmalçı* indiyədək yazdıqlarının hamısından əl çəkib, əvvəl sovet həyat tərzini, sonra suverenlik ideologiyasını və “cəbhəçilik” təlimini təriflәyib, indi isə dünya genosiyasəti ilə məşğuldur. b) *Katibə* də dəliyə çevrilməmək üçün elə lap əvvəldən qırqovula çevrilir, - Bizim fikrimizcə, belə adlar obrazları bir növ kiçiltmək, dəyərsizləşdirmək məqsədi daşıyır. 2) Elçin bədii yaradıcılığında intensiv şəkildə tarixi şəxsiyyətlərin adlarından istifadə etmişdir: Stalin, Kirov, Qorbaçov, Klinton, Voroşilov və s. 3) Bəzən Elçin dünyanın və Azərbaycanın simvollaşmış ədəbi qəhrəmanlarının adlarını xatırladır. Məsələn; Hamlet, Kral Lir, Dante, Koroğlu, Hacı Qara, Şeyx Nəsrullah, Kefli İsgəndər.

Bəzən Elçin “heç bir izahat vermədən oxucunun başa düşəcəyinə əmin olaraq İbn Sina, Sədi, Kəmaləddin Bəhzad, Əlişir Nəvai və digər şərq adları ilə yanaşı, Ərəstu, Eynşteyn, Pikasso, Ç. Çaplin kimi Avropa adlarını öz bədii əsərlərinə daxil etmişdir”[1].

4) Yazıçı bəzən obrazın əsl adını deyil, ləqəbini ön plana çəkir: “Poçt şöbəsində xəyal” əsərinin qəhrəmanı *Yoldaş Tək* kimi. Nümunə:

- Yoldaş Tək, Zülyayla Gülya düz bir ildir məni dəng ediblər ki, niyə onları sizinlə tanış etmirəm [2].

5) Bəzi ləqəblər personajın milli mənsubiyyətini oxucuya çatdırmaq üçün seçilmişdir: gürcü Yusif... və s.

İkinci yarımfəsildə **“Toponimlərin üslubi xüsusiyyətləri**” araşdırılır. Elçinin yaradıcılığında toponimlərin leksik-semantik və üslubi xüsusiyyətlərinin tədqiqi xüsusilə aktuallıq kəsb edir. Bunu nəzərə alaraq

---

[1] Hacıyev A. Azərbaycan dili onomastik leksikasının bəzi problemləri. AOP, elmi-onomastik jurnal, I, Bakı, 1987, s.257.

[2] Elçin. Beş dəqiqə və əbədiyyət (hekayə və povestlər). Bakı, Gənclik 1984, s.268.

Elçinin yaradıcılığında toponimlərin üslubi cəhətlərinin aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Həyat hadisələrini təsvir edərkən real toponimik vahidlərdən istifadə edir. Məs.; a) Harada istirahət etmək istəyirsən, gedək Kislovodska, - cümləsində toponim vasitəsilə həmin dövrdə insanların həyat tərzini, istirahət deyərkən elə Kislovodskinin yada düşdüyünü nəzərə çatdırmışdır, bir qrup insanların-zənginlərin "müasirliyi" ni diqqətə çatdırmışdır. 2. Yazıçı bəzən fikirlərini mətnaltı məna ilə ifadə edir ki, bu zaman da məkan olaraq uydurma toponimləri daha münasib bilir. Məsələn, a) Axı, dünya xəritəsində Cərculistan deyilən bir ölkə yoxdur. – Var, artıq həqiqəti hamı bilməlidir! Dünyanı müxtəlif ölkələr yox, yəni Amerika yox, Rusiya yox, İngiltərə yox, Vatikan yox, ancaq bir təşkilat idarə edir.3) Yazıçı bəzən personajların dilində toponimlərin təhrif edilmiş variantlarından istifadə etmişdir. Məsələn; Paris-Parij; Peterburq- Fitilbörk.

Elçin Əfəndiyevin yaradıcılığındakı onomastik vahidlərin linqvistik təhlili zamanı alınan əsas **nəticələri** aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Bu əsərlərdə bütün onomastik sistemdə özünü göstərən kateqoriyalar müasir Azərbaycan ədəbi dili normaları çərçivəsində meydana çıxır.

2. Elçin Əfəndiyevin yaradıcılığında rast gəlinən toponimlərin linqvistik təhlili göstərir ki, apelyativ leksika ilə onomastik leksika arasında möhkəm bağlılıq var.

3. Elçinin yaradıcılığında rast gəlinən xüsusi adlar Azərbaycan dilinin onomastik sisteminə məxsus səciyyəvi leksik-semantik və qrammatik xüsusiyyətləri özündə əks etdirir.

4. Elçin Əfəndiyevin yaradıcılığında ümumi olaraq 8000-ə yaxın onomastik vahiddən istifadə olunmuşdur.

5. Ədib yaradıcılığında daha çox antroponim, ktematonim və toponimlərə yer versə də, demək olar ki, xüsusi adların bütün növləri və qruplarından istifadə etmişdir.

6. Elçin yaradıcılığında xüsusi adlar türk, ərəb-fars və Avropa mənşəlidir. Milli mənşəyə malik xüsusi adlar daha qədim təşəkkül tarixinə malik olub, Azərbaycan xalqının bir xalq kimi formalaşmasında iştirak edən türk tayfa və qəbilə adlarının linqvistik və etnik materiallarına əsaslanır.

7. Onomastik vahidlərin qrammatik üsulla yaranmasının iki yolu müəyyən edilmişdir. Bunlardan biri morfoloji, digəri isə sintaktik qaydada söz yaradıcılığıdır.

8. Morfoloji üsulla yaranan onomastik vahidlərdə kök + şəkilçi modelinə üstünlük verilmişdir.

9. Elçin yaradıcılığındakı onomastik vahidlər quruluşuna görə ilkin və düzəltmə olaraq iki yerə bölünür. Düzəltmə onomastik vahidlərin yaranmasında: (-lı), (-lıq), (-çı),(-lar) milli mənşəli; (-ski), (-anə), (-əddin), (-ulla) və s. alınma şəkilçilər daha fəaldır.

10.Sintaktik yolla xüsusi adların yaranması hadisəsi Elçin yaradıcılığında aparıcı mövqedə dir. Burada həm sırf sintaktik, həm də sintaktik morfoloji üsul əsasında, (kök+kök; kök+ kök+ şəkilçi) sxem-modelləri əsasında yaranan onomastik vahidlər daha çoxdur.

11.Tədqiqata cəlb etdiyimiz Elçin Əfəndiyevin yaradıcılığında 308 antroponim, 220 ktematonim, 167 toponim, 14 etnonim, 33 hidronim, 18 zoonim, 19 fitonim, 11 kosmonimə rast gəlindi.

**Dissertasiyanın məzmunu ilə əlaqədar aşağıdakı tezis və elmi məqalələr çap olunmuşdur:**

1.Elçin Əfəndiyevin "Mahmud və Məryam" romanındakı ləqəblərin işlənmə xüsusiyyətləri // Gənc tədqiqatçıların Ümumrespublika konfransı. Qafqaz Universiteti, 6-7 may, 2010, s. 480.

2.Elçin Əfəndiyevin "Mahmud və Məryam" əsərində antroponimlərin mənşəyi//Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları, Bakı, 2011, II, s.136-138.

3.Elçin Əfəndiyevin "Ağ dəvə" romanında işlənən dini adların linqvistik xüsusiyyətləri//Gənc tədqiqatçıların 1 Beynəlxalq elmi konfransı. Qafqaz Universiteti, 26-27 aprel, 2013, s.485-486.

4.Elçin Əfəndiyevin yaradıcılığında bəzi onomastik vahidlərin üslubi mənşəyi//Gənc tədqiqatçıların II Beynəlxalq elmi konfransı. Qafqaz Universiteti, 18-19 aprel, 2014, s.227.

5. Elçin yaradıcılığında müxtəlif toponimlərin leksik-semantik xüsusiyyətləri//Filologiya məsələləri, Bakı, "Elm və təhsil", Bakı, 2013, N 10, s.113-117

6. Elçin yaradıcılığında antroponimlərin leksik-semantik xüsusiyyətləri // Dədə Qorqud araşdırmaları, 3 Bakı, ADPU nəşr 2014, s. 131-147

7. Elçin Əfəndiyevin əsərlərində ktematonimlərin leksik-semantik xüsusiyyətləri // Pedaqoji Universitet Xəbərləri. Bakı-N 2-2014, s.267-270.

8. Лексико-семантические особенности в творчестве Эльчина // Казахский Национальный Университет им. Аль-Фараби, «Хабаршы» филология сериясы, 4-5(150-151), 2014, с.259-264.

9. Elçin Əfəndiyev yaradıcılığında işlənən antroponimlərin morfoloji xüsusiyyətləri//"Tağıyev oxuları" elmi məqalələr məcmuəsu, 2, Bakı, BSU, 2014, s.101-106.

10. Elçin Əfəndiyevin yaradıcılığında işlənən etnonim, hidronim, kosmonim, fitonim və zoonimlərin leksik-semantik xüsusiyyətləri// Azərbaycan Xarici Dillər Universitetinin Elmi xəbərləri, Bakı, 2015, N 1,s.95-99.

11. Elçin Əfəndiyevin yaradıcılığında işlənmiş onomastik vahidlərin üslubi xüsusiyyətləri//Pedaqoji Universitet Xəbərləri. Bakı-N4-2014, s.248-253.

12. Dədə Qorqud Kitabı və Elçin Əfəndiyevin yardıcılığında ortaq antroponimlər // Dədə Qorqud araşdırmaları. ADPU. N4. Bakı-2015, s.191-199.

13. Elçin Əfəndiyevin yaradıcılığında işlənən dini, əfsanəvi və folklordan gələn obraz adları //AR.TN.BSU. Azərbaycanşünaslığın aktual problemləri. Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, I h. Bakı, 5-7 may, 2015, s.11-13.

14. Elçin Efendiyev'in Yazılarında Kullandığı Onomastik Adlar və Onların Qruplan-dırılması // VIII Congress of the İnternational Society of Dialectology and Geolinguistics. Doğu Akdeniz Universitesi 14-18 September North Cyprus, s.9-10.

15. Elçin Əfəndiyevin yaradıcılığında toponimlərin morfoloji xüsusiyyətləri//Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adina Dilçilik İnstitutu. Dilçilik İnstitutunun əsərləri. N 2. Elm və təhsil. Bakı-2015, s.21-27.

**З.И.АББАСОВА**

# ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ ИСПОЛЬЗОВАННЫХ В ПРОИЗВЕДЕНИЯХ ЭЛЬЧИНА ЭФЕНДИЕВА

## РЕЗЮМЕ

Диссертация состоит из введения, четырех глав, заключения и использованной научной литературы. Во введении обосновывается выбор темы, актуальность темы исследования, указывается его объект и предмет, определяются цели и задачи исследования, научная новизна, указана теоретическая значимость и практическая ценность, отмечаются положения выносимые на защиту, апробация ее научных положений.

**Первая глава** называется «Виды ономастических единиц использованных в художественных прозведениях Эльчина Эфендиева». Здесь в двух частях говорится о характерных особенностях поэтической ономастики, о роли азербайджанских и всемирных языковедов в развитии этих единиц. На основании примеров разъясняются количественные и качественные развития ономастических единиц, которые сохраняют в себе много исторических фактов.Ономастические единицы использованные в произведениях Эльчина, были изучены в следующих группах: 1. Антропонимы, 2. Этнонимы, 3. Топонимы, 4. Гидронимы, 5. Зоонимы, 6. Космонимы, 7. Ктематонимы.

**Во второй главе** под названием «Лексичесико - семантические особенности ономастических единиц в произведенях Эльчина Эфендиева» обсуждаются лексические, семантические, этимологические особенности ономастических единиц.

**Глава III** называется «Грамматические особенности ономастических единиц в произведенях Эльчина Эфендиева». Здесь в двух заголовках разъясняются морфологические и синтаксические особенности, морфологические признаки, новые единицы созданные писательем морфологическим и синтактическим методом.

В **четвертой главе** диссертации под названием «Стилистические особенности ономастических единиц в произведенях Эльчина Эфендиева» автор диссертации рассматривает стилистические особенности ономастических единиц, как антропонимов и топонимов.

В заключении приводятся итоги исследования, представлены выводы и обобщения основных результатов и положении диссертации.

**Z. İ.Abbasova**

## LINGUISTIC FEATURES OF ONOMASTIC UNITS IN ELCHIN EFENDIYEV'S WORKS

### SUMMARY

Introduction of dissertation consists of four chapters, the result, literature and a list of vocabulary. In the Introduction part of the dissertation the actuality of the subject has been based,the goals and objectives of the research, the object, scientific innovation, methods, provisions of defense have been identified, theoretical and practical significance, approbation and structure have been submitted.

The **first** chapter is called "the Onomastic units and their types used in Elchin Efendiyev's creation" and it consists of two subchapters. In this chapter having been expected the principle of historicity, the creation of the poetic onomastics in Azerbaijan in recent centuries, the characteristic features of the investigations, techniques and methods have been investigated, the development of quantitative and qualitative, the evolution and other issues have been notified attitude, some Arabic and European sources which the onomastic units were preserved have been noted.the in recent centuries onomastic poetic creation, the characteristic features of the research, methods and tools used in the identification, quantitative and qualitative development, evolution and on other issues stated, onomastic units preserved many historical sources noted.The onomastic units which were used in Elchin's creation have been studied in the groups: 1. Anthroponyms 2. Ethnonyms 3. Toponyms 4. Hydronyms 5. Zoonyms 6. Kosmonyms 7. Kthematonyms.

**Chapter II** is called "Lexical-semantical features of onomastic units in Elchin Efendiyev's creation" and it consists of four subchapters. Anthroponyms, toponyms (place names), kthematonyms and the lexical-semantical features of other groups of onomastic units have been investigated.

**Chapter III** is called "Grammatical features of onomastic units used in Elchin Efendiyev's creation". This chapter consists of two subchapters.In this chapter morphological and syntactical features of onomastic units which were used in Elchin Efendiyev's creation had been researched.

**The fourth chapter** of the dissertation is called "Stylistic features of onomastic units used in Elchin Efendiyev's creation". Here two subchapters have been introduced. Anthroponyms and toponyms which were distinguished by stylistic features in Elchin's creation were also introduced.The results which were taken during the linguistic analysis of onomastic unites in Elchin Efendiyev's creation have been generalized in 17 items in the end.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ АЗЕРБАЙДЖАНСКОЙ
ИНСТИТУТ ЯЗЫКОЗНАНИЯ им. НАСИМИ

***На правах рукописи***

**ЗЕМФИРА ИСАХАН кызы АББАСОВА**

# ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ ИСПОЛЬЗОВАННЫХ В ПРОИЗВЕДЕНИЯХ ЭЛЬЧИНА ЭФЕНДИЕВА

**5706.01 – Азербайджанский язык**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по филологии**

**БАКУ – 2016**